2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının
Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil
olmuş 23 fevral 2020-ci il tarixli 394 saylı müraciətə baxılması
barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 85 saylı Şamaxı seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanov Əzizağa Mirpaşa oğlu 2020-ci il fevralın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 19 fevral 2020-ci il tarixli 20/2 saylı qərarını mübahisələndirmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. O, Komissiyanın iclasında iştirak etməyə gəlməmişdir.

Namizəd Ə.M.Süleymanov dairə seçki komissiyasının qərarını mübahisələndirsə də qərarda göstərilən hallara dair fikir bildirməmiş, ümumi halda pozuntular baş verdiyi bildirmiş, əsasən də lider namizədin seçkiqabağı təşviqatı ilə bağlı ehtimal olunan pozuntular barədə məlumatlar göstərmişdir.

Müraciətin səsvermə gününədək iddia edilən qanun pozuntuları hissəsi ilə bağlı qeyd edilməlidir ki, həmin pozuntular Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə mübahisələndirildiyindən onlar üzrə araşdırma aparılması istisna olunur.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, Milli Məclisə seçkilərdə seçki dairəsi üzrə 830 nəfər müşahidəçi, vəkil edilmiş şəxs və məşvərətçi səs hüquqlu üzv qeydə alınmışdır. Bundan əlavə seçki dairəsi ərazisində müxtəlif qurumları təmsil edən 15 nəfər beynəlxalq müşahidəçi müşahidə aparmışdır. Deputatlığa namizəd Ə.M.Süleymanov dairənin əhatə etdiyi 63 seçki məntəqəsindən 14 seçki məntəqəsinə müşahidəçi təyin etmişdir. Seçki günü istər yerli müşahidəçilərdən, istərsə də beynəlxalq müşahidəçilərdən səsvermə başlandığı andan sona çatanadək, həmçinin səslər sayılarkən və məntəqə seçki komissiyasının yekun protokolu tərtib edilərkən dairə seçki komissiyasına və məntəqə seçki komissiyalarına seçki məntəqələrində qanun pozuntularına yol verilməsi barədə müraciət daxil olmamışdır. Namizədin müraciətinin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə yayımlanmış görüntülərə baxış keçirilmiş, lakin dairə seçki komissiyasının seçki məntəqələrindən hər hansı görüntü aşkar edilməmişdir.

Namizəd tərəfindən müraciətə əlavə edilmiş 2 ədəd elektron məlumat daşıyıcısı olan diskə (CD) baxış keçirilmiş, həmin disklərdən biri seçkiqabağı təşviqatla bağlı görüntülərdən, digəri isə səsvermə günü bəzi məntəqələrdə aparılmış və özündə hər hansı pozuntunu əks etdirməyən görüntülərdən ibarətdir.

Namizədin müraciətinin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə yayımlanmış görüntülərə baxış keçirilmiş, lakin dairə seçki komissiyasının seçki məntəqələrindən hər hansı görüntü aşkar edilməmişdir.

Aparılmış araşdırma məcmu şəkildə qiymətləndirilərək müəyyən edilir ki, seçki dairəsi üzrə qeydə alınmış namizəd Ə.M.Süleymanovun müraciətinin təmin edilməməsi barədə dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir. Ona görə də hazırki araşdırma ilə müraciətin təmin olunması və dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki

Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 85 saylı Şamaxı seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanov Əzizağa Mirpaşa oğlunun 23 fevral 2020-ci il tarixli 394 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 20/2 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov